*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   1 fevral 2020-ci il   № 8 (2426)   Qiyməti 30 qəpik


## 2 Fevral Gənclər Günüdür

# Gənclər Vətənin işıqlı sabahı, nurlu gələcəyidir

*Gənclik böyük və tükənməz bir qüvvədir. Gənclər Vətənin işıqlı sabahı, nurlu gələcəyidir. Gəncliyin savadlı, dünyagörüşlü yüksək əxlaqlı, tərbiyəli, vətənpərvər ruhlu olması hər bir dövlət üçün vacibdir. Gənclər cəmiyyətin aparıcı təbəqəsidir. Fiziki və mənəvi cəhətdən sağlam olan, dünyada gedən prosesləri qavrayan, müasir texnologiyalarla işləməyi bacaran, əqidəli, milli-mənəvi dəyərlərə malik gənclər Vətənimizi uğurlu gələcəyə aparmaq üçün böyük qüvvədir. Buna görə də inkişaf və inteqrasiya məhz gənclərlə addımlayır. Dövlətin və cəmiyyətin gələcəyi gənclərdir və gələcəyini düşünən dövlət gənclərin inkişafına qayğı göstərir. Gənclərin inkişafına yatırım edən hər bir dövlət bununla öz xoşbəxt və firavan gələcəyini təmin edir.*

## Ümummilli lider Heydər Əliyev:

*"Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur."*



Ölkəmizdə də gənclər siyasəti daim diqqət mərkəzində saxlanılır. Dövlətimizin inkişafında, onun iqtisadi, siyasi və mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında gənclərimizin rolu danılmazdır. Tarixi inkişaf yolumuza nəzər saldıqda, onun hər mərhələsində gənclərimizin özünəməxsus rol oynadığının şahidi oluruq. Bir sözlə, bütün dövrlərdə gənclərin fəaliyyəti dövlətimizin tərəqqisinə öz töhfəsini verib. Hər sahədə olduğu kimi, ordu quruculuğunda da gənclərin rolu əvəzsizdir. Onlar Vətən qarşısında borclarını yerinə yetirmək üçün ləyaqətlə orduda xidmət edir, hərbi texnikanın sirlərinə mükəmməl yiyələnirlər. Bütün bunlar müstəqil Azərbaycanın sabahına nikbin baxmağa əsas verir.

Müstəqil dövlətimizin banisi ümummilli lider Heydər Əliyev də gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edirdi. Gənclərin yüksək bilikli, savadlı, səviyyəli və sağlam ruhlu olması üçün lazımi tədbirlər görən, bu istiqamətdə ilk addımlar atan da elə məhz Ulu Öndər oldu. Gənclər siyasətindən danışarkən, onun gənclər haqqında nitqlərindən sitatlar gətirməmək, ibrətamiz sözlərini xatırlamamaq mümkün deyil. Ümummilli Liderimizin dediyi "Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir... Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir" sözləri gənclərə olan diqqət və qayğısının bariz nümunəsidir.

Dahi rəhbər ölkədə gedən demokratik islahatlarda, ictimai-siyasi, mədəni həyatımızın müxtəlif sahələrində baş verən məqsədyönlü proseslərdə gənclərin roluna həmişə xüsusi diqqət yetirirdi. Müxtəlif qurumlarda, dövlət idarələrində, siyasi və iqtisadi arenalarda gənclərin fəal iştirakını təmin edirdi. Rəhbərliyə gəldiyi ilk dövrlərdən gənclərin himayədarı kimi çıxış edərək sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görür, bununla yanaşı, gənclərin milli və vətənpərvər ruhda tərbiyəsinə həmişə önəm verirdi.

Gənclər Gününün təsis edilməsi də məhz Ulu Öndərin adı ilə bağlıdır. 1997-ci ildən onun sərəncamı ilə 2 fevral Azərbaycanda Gənclər Günü kimi qeyd olunmağa başlandı. Uğurlu gənclər siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, dünyagörüşlü yeni nəsil yetişib. Bugünkü gün gəncliyimiz də ümummilli liderimiz Heydər Əliyevin xidmətlərini heç zaman unutmur, onun bizə bəxş etdiyi Azərbaycanın müstəqilliyini, elmin, təhsilin inkişafını, ölkəmizin siyasi, iqtisadi yüksəlişini, gənclərə olan diqqət və qayğısını dərin ehtiram hissi ilə xatırlayırlar.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan siyasi kursu bu gün Prezident, Ali Baş Komandan İlham Əliyev uğurla davam etdirir. Onun rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan verir, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynayır.

Hazırda ölkə başçısının rəhbərliyi ilə gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial, iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə böyük işlər görülür. "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" deyən cənab Prezidentimizin gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədi ilə 2020-ci ili "Könüllülər İli" elan etməsi də gənclərə olan yüksək inamın təcəssümüdür.

Bu gün ölkəsini sevən, Vətəninə sonsuz sevgi ilə bağlı olan hər bir Azərbaycan gənci ümummilli lider Heydər Əliyevin ideyalarını öz fəaliyyətində daim rəhbər tutmağa, Azərbaycan gəncliyinin lideri olan möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin əbədi yaşaması uğrunda mübarizə aparmağa hər zaman hazırdır.

**"Azərbaycan Ordusu"**

# Bakıda "NATO-da təlimlərin planlaşdırılması prosesi" mövzusunda kurs keçirilir



Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2020-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, NATO-nun Brunsumda yerləşən Birləşmiş Qüvvələr Komandanlığının Mobil Təlim Qrupu tərəfindən Bakıda "NATO-da təlimlərin planlaşdırılması prosesi" mövzusunda təlim kursu keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Ordusunun müxtəlif qoşun növlərindən olan hərbi qulluqçuların iştirak etdikləri kursda NATO-nun ekspertləri tərəfindən iştirakçılara Şimali Atlantika Alyansında əməliyyatların planlaşdırılması, layihələndirilməsi, qiymətləndirilməsi prosesi, məlumatların təhlili və digər mövzulara dair təqdimatlar verilir, praktiki qrup tapşırıqları həyata keçirilir.

# STANAG testləri üzrə təcrübə mübadiləsinə dair seminar keçirilib



*Azərbaycan və Litva Müdafiə nazirlikləri arasında 2020-ci il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında seminar keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, STANAG testlərinin tərtib edilməsi üzrə təcrübə mübadiləsinə və hazırlanmış testlərin qarşılıqlı sınaqdan keçirilməsinə dair seminarda test materiallarının hazırlanmasının metodologiyası və nəticələrin uzlaşdırılması mövzuları, həmçinin xarici dil mərkəzləri ilə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.

# XİN Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşü ilə bağlı açıqlama yayıb

Yanvarın 28-30-da Cenevrədə ATƏT-in Minsk Qrupunun həmsədrləri və qurumun fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşü olub.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Cenevrə görüşü son illər ərzində tərəflər arasında ən intensiv müzakirələrin aparıldığı görüş olub.

Tərəflər həmsədrlərin təqdim etdikləri gündəlik üzrə hərtərəfli müzakirələr aparıblar. Bu sırada 2019-cu il ərzində irəli sürülmüş təkliflər və əldə olunmuş razılıqların, xüsusilə iki ölkə əhalisinin sülhə hazırlanması üçün humanitar mübadilələrin həyata keçirilməsi, həmçinin münaqişənin tənzimlənməsinin əsasını təşkil edən prinsip və elementlər, xüsusilə də münaqişənin Helsinki Yekun Aktının prinsipləri və müddəaları əsasında həlli və nəhayət, münaqişənin həlli prosesinin daha da intensivləşdirilməsi məsələlərini qeyd etmək lazımdır. Bu xüsusda, nazirlər yaxın zamanda yenidən görüşməyə razılaşıblar.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**29 yanvar 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**30 yanvar 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Cəvahirli, Abdinli, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**31 yanvar 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Gənc zabitlərimiz*

# "Hərbçi olmağımla qürur duyuram"

*Həyatda hər bir sənətin, peşənin öz yeri və özəlliyi mövcuddur. Sən sənətinlə o zaman ucala bilərsən ki, öz peşəni ürəkdən sevib onun ustası, sənətkarı olasan. Ona görə də gərək peşə seçimində heç zaman yanılmayasan. Hər hansı peşəni seçmək istəyən zaman düşünmək vacibdir. Mən bu peşəni sevirəm, ya yox. O insan xoşbəxtdir ki, seçdiyi peşəyə daima ürəyində məhəbbəti, istəyi var.*



Ön xətt bölmələrimizdən birində xidmət edən kapitan Elvin Cəfərov da zabit olmaq fikrinə təsadüfdən düşməmişdi. Hələ orta məktəb illərindən onun qəlbində hərbi peşəyə bir bağlılıq yaranmışdı. Daxili bir qüvvə onu bu arzuya, bu istəyə çəkib gətirmişdi. Belə olmasaydı, çətin günlərinin öhdəsindən gəlmək mümkün olmazdı. Elvin isə hərbin çətin yollarında əyilmədi, əksinə, peşəyə xas olan çətinliklər onu daha da mətinləşdirdi.

Bəzən zabitlərimiz haqqında yazı hazırlayanda daha çox onlara belə bir ənənəvi sualla müraciət edirik: "Sizi bu peşəyə gətirib çıxaran həvəs haradan yaranıb?" Gənc zabit söhbət zamanı hərbçi peşəsini sevərək seçdiyini bildirdi. "Hər bir peşəyə istək insanın öz içində doğulmalıdır, yəni, irsi bağlılıq yaranmalıdır. Hərbi peşəni sevməyən şəxs necə zabit ola bilər? İnsanın seçdiyi peşə onun ömrünün mənası olmalıdır. Seçdiyim hərb peşəsi mənim ömrümün mənasıdır. Hər zaman peşəmlə qürur duyuram."

Elvin Heydər Əliyev adına Hərbi Liseyi yüksək göstəricilərlə başa vurub, hərbin yollarında ilk addımlarını uğurla atıb. Sonra təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirib. Hərb elminin sirlərini təcrübəli müəllimlərindən öyrənib. Gələcəkdə təcrübəli zabit kimi formalaşmaqdan ötrü ixtisasını nəzəri-praktiki cəhətdən öyrənməyə üstünlük verib.

Gənc zabit söhbətində onu da vurğuladı ki, valideynləri ona ilk gündən layiqli hərbçi olmağı, müqəddəs zabit peşəsinin şərəfini daima uca tutmağı arzulayıblar. "Onlar hər zaman mənə tövsiyə ediblər ki, əsl mərdlik çətin, dar məqamda peşə şərəfini qorumaqdır. Hərbçi heç nədən çəkinmədən Vətənin, torpağın, xalqın, dövlətin mənafeyini uca tutmalıdır."

Kapitan E.Cəfərov xidmət etdiyi bölmənin döyüş və mənəvi-psixoloji hazırlığından həvəslə danışır, eyni zamanda, ötən ildə keçirilən təlimlərin yekunlarına görə uğurlu nəticələr qazandıqlarını deyir. "Təcrübəli zabitlərin yorulmaz əməyi şəxsi heyətin qazandığı uğurlarda ilkin şərtdir. Biz zabitlər əsgərlərimizə döyüş vərdişlərini böyük həvəslə öyrədirik."

Cəbhə xəttində keçdiyi şərəfli yol Elvinin də zabit peşəsinə vurğunluğunu bir daha təsdiqləyir. İnanırıq ki, hələ bundan sonra da kapitan Elvin Cəfərovun ucalığa gedən yolda uğurlarından çox xəbərlər alacağıq.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

Ön xətdən reportaj

# Azərbaycan əsgəri zəfər sorağı ilə xalqımıza sevinc bəxş edəcək!

*Soyuq bir qış səhəridi... Bu günün soyuğu, şaxtası, özünəməxsus gözəlliyi və insanlara bəxş etdiyi əhval-ruhiyyəsi nədənsə digər günlərdən seçilir. Yolboyu düşüncəmizə səngər, Azərbaycan əsgəri, işğal olunmuş torpaqlarımızın tezliklə azad olunacağı... fikri hakim kəsilib. Hava soyuq olsa da, yaxşı bilirik ki, Azərbaycan əsgəri yayın istisindən, qışın sazağından, xidmət etdiyi yerin relyefindən asılı olmayaraq müqəddəs vəzifəni yerinə yetirir, ana Vətənin müdafiəsində dayanır.*



Dan yeri sökülməkdədi. Səhər saatları olsa da, nəhayətsiz səma gecənin qaranlığından qurtula bilməyib. Evlərdən ətrafa yayılan işıq qaranlığın bağrını yarmağa çalışır. Bir qədər keçdikdən sonra hava işıqlanmağa başlayır, uzaqdan başı qarlı uca dağlar görünür. Dağlara baxdıqca düşünürəm ki, burada dağ dağa söykənib, dağ vüqarlı oğullarımız başı qarlı



dağlardan ilham alıb düşmənə qarşı sipərə çevrilib. Həm də fikirləşirəm ki, əslində, dağları dağ edən onun dağ vüqarlı oğullarıdır.

"N" hərbi hissəsində bizi polkovnik-leytenant Rüstəm Məmmədov qarşılayır. Zabitlə qısa söhbətdən sonra hərbi hissənin ön xətdə yerləşən bölməsinə yola düşürük. Öyrənirik ki, gedəcəyimiz bölmə müasir standartlara uyğun qurularaq şəxsi heyətin istifadəsinə yeni verilib.

Kələ-kötür yollar bitmək bilmir. Təcrübəli sürücü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Kamal Həsənov ilə yolboyu söhbət edə-edə, ətrafa göz gəzdirirəm. Kənd camaatı havanın soyuq olmasına baxmayaraq təsərrüfat işləri ilə məşğuldu. Diqqətimi cəlb edən əsas səhnələrdən biri azyaşlı uşaqların hərbi təyinatlı avtomobillərə əsgəri salam verməsi səhnəsi olur. Bu, ən yadda qalacaq səhnələrdən biri kimi əbədi hafizəmə həkk olundu. Eşq olsun o valideynlərə ki, gələcəyimizin memarı olacaq balalarımızı belə patriot ruhda tərbiyə edirlər! Sürücü Kamal Həsənov isə qeyd edir ki, kənddə uşaqların hərbi qulluqçu və hərbi təyinatlı avtomobil gördükdə hərbi salam verməsi təqdirəlayiqdir və onların bu peşəyə olan sevgisinin təzahür formasıdır. "Bu cür məqamlar insanda xoş təəssüratlar oyadır. Bunlar xalqımızın, millətimizin yaşından asılı olmayaraq ordumuza olan inamının təcəssümüdür. Sabahın əsgərlərinin kiçik yaşlarından vətənpərvər ruhda böyüdülməsi çox mühüm məqamlardan biridir. Bu gün hamımız yaxşı bilirik ki, xalq ordusuna, ordu isə xalqına sonsuz inanır və güvənir. Aprel döyüşləri bunu bir daha təsdiqlədi. Bu gün uşaq yaşlarında hərbçilərimizi görəndə sevinən, ona hörmət edən gənclik özü sabah əsgər olanda uşaqlardan eyni hörməti və izzəti görəcək. Bu ənənə ata-babalarımızdan bizlərə, bizlərdən də gələcək nəsillərə ötürüləcək".

Söhbət edə-edə yaşayış məntəqələrini arxada qoyuruq və zamanın necə ötüb keçdiyinin fərqinə varmadan dayaq məntəqəsinə çatırıq. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Xəyal Qurbanov şəxsi heyəti təlimatlandırır. Növbəni dəyişdikdən sonra Xəyalla həmsöhbət oluruq. Hərbçi ailəsində göz açdığını deyən müsahibim uşaqlıqdan bu peşəyə marağının yarandığını bildirir. "Atam Akif Qurbanov 2003-cü ildən ehtiyata buraxılıb. Uşaq yaşlarımdan onu hərbi formada görməyim, Vətən torpaqlarını işğaldan azad etmək istəyim məni bu peşəni seçməyə vadar etdi. Xidmətimin əsasını ön xətdə keçirmişəm. Bu gün gələcəyin əsgəri olacaq iki oğul atasıyam. Bölməmizdə olan əsgərlərin hər birini özümə doğma bilirəm. Cəsur oğullarımız ilə birlikdə Vətən keşiyində dayandığım üçün qürurlu və sevincliyəm. Hər biri nizam-intizamlı, vətənpərvər əsgərlərdir. Komandirlərimizlə birlikdə şəxsi heyəti əsl döyüşçü kimi daha da təkmilləşdirmək üçün əlimizdən gələni əsirgəmirik. Döyüş postunda xidmət etmək şərəflidir, məsuliyyətlidir və əsgərlərimiz bunu bilirlər. Döyüş növbətçiliyinin əsas şərti ayıq-sayıq və operativ olmaqdır. Növbətçilik vaxtı düşmən mövqeləri daim nəzarətdə saxlanılır, atəşkəs rejiminin pozulduğu təqdirdə düşmən layiq olduğu cavab atəşi ilə susdurulur".

Şəxsi heyətin məişət şəraiti ilə tanış olmaq üçün müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elvin Əliyevlə söhbətləşirik. Elvin son zamanlar ordumuzda aparılan islahatlardan, bölmələrində yaradılan şəraitdən danışır. Məişət şəraiti ilə tanış olmaq üçün müsahibimlə birlikdə əsgər yataqxanasına daxil oluruq. Yataqxanada səliqə-sahman göz oxşayır. Şəxsi heyətin isti su təchizatından tutmuş, otaqların temperaturuna qədər hər şey qış mövsümünə uyğun qurulub. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu E.Əliyev bildirir ki, Ali Baş Komandanın göstərişlərinə əsasən, Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yeni hərbi hissələr tikilir, eyni zamanda, bir çox hərbi hissələrdə təmir və yenidənqurma işləri aparılır. "Rəhbərlik tərəfindən ordumuza olan diqqət və qayğı yüksək səviyyədədir. Hərbi hissəmizdə şəxsi heyətin gündəlik fəaliyyətinin düzgün təşkil edilməsi üçün istənilən şərait yaradılıb. Kitab guşəsi, trenajor zalı əsgərlərin istifadəsinə verilib, onlar asudə vaxtlarını burada keçirirlər".

Füzuli rayonundan olan əsgər Elçin Cəfərov qeyd edir ki, atası Əfrail Cəfərov və dayısı Maxsud Qarayev Qarabağ müharibəsi zamanı Horadiz istiqamətində gedən döyüşlərdə iştirak ediblər. "Atam və dayım müharibənin qanlı dövrünü görüblər. Onların hər birinin keçdiyi döyüş yolu mənim üçün nümunədir. Döyüş növbəsinə çıxarkən onların və komandirlərimin dediklərini daim xatırlayıram. Xalqımız bizə arxayındır, həmişə ayıq-sayıq olmalıyıq ki, onlar firavan yaşasınlar. Vətənə xidmət hər birimizin övladlıq borcudur. Bu müqəddəs borcu düşmənlə təmas xəttində yerinə yetirdiyim üçün fəxr edirəm".

Əsgər Musa Musayev əslən Laçın rayonundan olsa da,



oraları canlı görməyib, ancaq qohum-əqrəbalarının danışdıqları qədər məlumata sahibdir. "Ata-baba ocaqlarından zorla didərgin salınmış həmyerlilərimizin taleyini düşünəndə mənim düşmənə olan nifrətim daha da artır. Yurdlarından didərgin düşənlərin, övladı şəhid olan ata-anaların gözlərindən süzülən hər damla göz yaşının qisasını alacağımız döyüşün iştirakçısı olmaq arzusundayam". Musa, həmçinin qeyd edir ki, dayısı Afan Bağırov Qarabağ müharibəsində Ağdam istiqamətində gedən döyüşlərdə tankçı olaraq iştirak edib.

Döyüş növbətçiliyi aparan əsgər Şəhriyar Məmmədli düşmən mövqelərindən gözlərini çəkmədən verdiyim "Vətən keşiyində dayananda hansı hissləri keçirirsən?" - sualımı cavablandıraraq qeyd edir ki, hərbi xidmətə gəlməsindən hazırkı dövrə qədər keçən günlərin onun ömür səhifəsində özünəməxsus yeri var. "Səngər igidlərin ünvanıdır. Bu səngərlərdə Mübarizlər, Çingizlər,... dayanıblar. Fəxr edirəm ki, bu gün Vətən müdafiəçisi adını daşıyıram. Xidmətimin əsas hissəsi hələ qarşıdadı, çalışacağam ki, komandirlərimin təcrübələrindən faydalanaraq bilik və bacarıqlarımı daha da təkmilləşdirim."

Əsgər Kamal Abdulrahmanovun xidmətinin bitməsinə az bir müddət qalmasına baxmayaraq, torpaqlarımızın işğaldan azad olunacağı günə qədər Vətəninə xidmət edəcəyini bildirir: "Xidmətimin çox hissəsi ön xətdə keçib. Kənardan bu çətin görünə bilər, lakin yaradılan şəraiti özünüz də gördünüz. Təminatımız və təchizatımız yüksək səviyyədədir. Burada olduğum müddətdə Müdafiə Nazirliyinin rəhbərliyini bizi görməyə gəlməsi, qayğı və problemlərimizlə maraqlanması hər birimizdə ruh yüksəkliyi yaradır".

Əsgərlər Məhəmməd Məmmədov və Bəhruz Fərəcli də düşmənlə üzbəüz mövqedə xidmət etməkdən qürur duyduqlarını söyləyirlər. Onların hər birinin sözlərində patriotizm hiss edilir. "Vətənpərvərlik və döyüş ruhu yüksək olan əsgər məğlubedilməzdir", - deyə hər iki əsgər bildirir.

Hər gün bir az daha qələbəyə yaxınlaşırıq. İllərdir beynəlxalq qurumların bərpa edə bilmədiyi ədaləti Azərbaycan əsgəri edəcək. Ali Baş Komandanın döyüş əmriylə Azərbaycan əsgəri zəfər sorağı ilə xalqımıza sevinc bəxş edəcək!

Sözsüz ki, ürəyi Vətən eşqi, xalq sevgisi ilə döyünən Azərbaycan əsgəri Ali Baş Komandanımızın döyüş əmri ilə işğal altında olan torpaqlarımızı geri qaytarmaq gücündədir.

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Həzi Aslanovun 110 illiyi Hərbi Dəniz Qüvvələrində də qeyd olundu

*Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Azərbaycan Ordusunda iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Əhəd oğlu Aslanovun anadan olmasının 110 illiyinə həsr olunmuş silsilə tədbirlərin keçirilməsi davam edir.*





Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində də görkəmli sərkərdə Həzi Aslanovun 110 illiyinə həsr olunmuş tədbir keçirildi.

"N" hərbi hissəsinin şəxsi heyətinin iştirak etdiyi tədbir xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başladı. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri açıq elan edən 3-cü dərəcəli kapitan İlhami Quliyev İkinci Dünya müharibəsində qəhrəmanlıq tarixi yazan iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun keçdiyi şanlı döyüş yolunun ordumuzun şəxsi heyətinə örnək olduğunu xüsusi vurğulayaraq, cəbhələrdə Azərbaycanın oğul və qızlarının göstərdiyi hünər və rəşadətindən danışdı, belə maarifləndirici tədbirlərin keçirilməsinin əhəmiyyətini qeyd etdi.

Yubiley tədbiri Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşı Gülxar Məmmədovanın çıxışı ilə davam etdi. O, çıxışında Azərbaycan hərb tarixinə adı qızıl hərflərlə yazılan iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun keçdiyi şərəfli döyüş yolundan geniş bəhs etdi. Müharibənin əvvəllərində ən gərgin cəbhələrdə qəhrəman həmyerlimizin Donbasda, Moskvada, Stalinqradda göstərdiyi hərbi şücaətindən və Kiyevin, Minskin, Xarkovun, Belorusiyanın azad olunmasındakı müstəsna xidmətlərindən ətraflı danışdı.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifasında hərbi vətənpərvərlik mövzusunda və qəhrəmanlığı tərənnüm edən mahnıların səsləndirilməsi, onların hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılması ilə sona çatdı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Təlim*

# Qələbəyə gedən yolun uğurlu olsun, Azərbaycan əsgəri!

*Geniş meydanda döyüş hazırlığı məşğələsi keçən şəxsi heyətin cəld və çevik hərəkətləri hələ uzaqdan diqqətimizi özünə çəkdi. Asta addımlarla onlara yaxınlaşıb məşğələnin gedişini izləməyə başladıq. Sıranın qarşısında dayanan zabit dərsin mövzusunu əsgərlərə ətraflı izah edirdi. Silahın sökülüb-yığılma qaydalarını əyani surətdə şəxsi heyətə göstərirdi. Əsgərlər isə zabitə qulaq asır, bütün diqqətlərini dərsin gedişinə yönəltmişdilər.*

Çox keçmir ki, zabit sırada dayanan əsgərlərdən birini yanına çağırıb, ona avtomat silahını sökub-yığmağı tapşırdı. Əsgər cəld hərəkətlə tapşırığı yerinə yetirməyə başladı. Silahı tutmağından, əl hərəkətlərindən hiss olunurdu ki, onun kifayət qədər təcrübəsi və səriştəsi var. Məhz elə buna görə də o, tələb olunan vaxt çərçivəsində silahı söküb-yığdı və bu barədə komandirə məruzə etdi. Beləcə, əsgərlər növbə ilə irəli çıxıb bacarıqlarını, bu günə qədər öyrəndiklərini şəxsi heyət qarşısında nümayiş etdirdilər. Onların cəld hərəkətləri, silahla davranmaları bir daha göstərir ki, gənc əsgərlər arxada qalan müddət ərzində hərbi biliklərini və döyüş hazırlığı vərdişlərini yüksək səviyyədə mənimsəyiblər. Deməli, nəzəri dərslər, əməli məşğələlər səmərəli keçib. Zabitlər məşğələlərin hər dəqiqəsindən bacarıqla istifadə ediblər.

Bir azdan məşğələdə fasilə elan olundu. Arada yaranmış vaxtdan istifadə edib zabit və əsgərlərlə həmsöhbət olduq.

Gənc zabit Yəhya Quluyev söhbətə cığır açaraq dedi ki, əsgərlərə hərbi bilikləri öyrətmək, döyüş vərdişlərini aşılamaq üzərimizə düşən ən başlıca vəzifələrdən biridir. "Bir qayda olaraq, xidmətimizə məsuliyyətlə yanaşaraq hərbi bilikləri ordu sıralarında ilk addımlarını atan gənc əsgərlərə həvəslə öyrədirik. Çalışırıq ki, əsgərlərimiz yüksək hazırlıqlı olsunlar. Döyüş vərdişlərini mükəmməl şəkildə mənimsəsinlər, hərbi bilikləri dərindən öyrənsinlər. Əsgərlər hərbi bilikləri öyrənməyə böyük həvəs və maraq göstərirlər. Bu həvəs və maraq onları gündən-günə arzularına qovuşdurur. Əsgərlərin ən böyük arzusu hərbi bilikləri öyrənmək və müxtəlif silahlardan hədəflərə dəqiq atəş açmaq, torpaqlarımızı erməni işğalçılarından azad etməkdir. Səmərəli keçən məşğələlərdə əsgərlərimiz məqsədlərinə asanlıqla nail olurlar. Gənc əsgərlərə məşğələ keçmək üçün hərbi hissədə hərtərəfli şərait yaradılıb. Zabit heyəti bu şəraitdən bacarıqla istifadə edərək gənc əsgərləri qarşıdakı xidmətə hazırlayırlar. Hərbi bilikləri mənimsədikcə onlar daha da həvəslə xidmət edirlər. Bu gün sırada dayanan əsgərlərin ordu sıralarına çağırıldıqları gündən çox zaman keçməyib. Amma özünüz də gördünüz ki, onlar hərbi bilikləri, döyüş vərdişlərini necə də mükəmməl mənimsəyiblər. Bu onların xidmətdə qazandıqları ilk uğurlarıdır. Əminəm ki, bu uğurların üstünə gələcəkdə yeniləri də əlavə olunacaq."



Gənc əsgərlərlə söhbətimiz olduqca maraqlı keçdi. İlk həmsöhbətim əsgər Nahid Həsənovun valideynləri işğala qədər Ağdam rayonunda yaşayıb. Əsgər Nahid Həsənov Ağdamı görmədiyinə görə çox təəssüflənir. Onun gözəlliyi, füsunkarlığı haqqında yalnız valideynlərindən eşidib. "Erməni qəsbkarlarının tapdağı altında olan Ağdamı, Şuşanı, başqa rayon və qəsəbələrimizi də azad etmək biz əsgərlərin üzərinə düşür. Bu, hərbçi kimi bizim ən müqəddəs borcumuzdur. Necə olursa-olsun, biz bu borcu yerinə yetirməliyik. Düşməni üstələmək üçün hər şeydən əvvəl hərbi biliklərə, döyüş vərdişlərinə yiyələnməliyik. Döyüş hazırlığımızı daim artırmalıyıq ki, peşəkarlığımız yüksək olsun. Xidmətə çağırıldığım ilk gündən dərs və məşğələlərdə fəal iştirak edərək hərbi biliklərə yiyələnirəm, döyüş hazırlığımı artırıram. Döyüş hazırlığımız nə qədər yüksək olsa, düşmən üzərində daha tez və itkisiz qələbə qazanarıq. Böyük sərkərdə və dövlət xadimi Mustafa Kamal Atatürk deyirdi: "Təlimdə tər, döyüşdə zəfər!" Deməli, gələcək döyüşlərdə zəfər qazanmaq üçün bu gün təlimlərdə tər tökməliyik, döyüş təcrübəmizi artırmalıyıq. Məşğələdən-məşğələyə hazırlığımızın yüksəldiyi, biliyimizin artdığı aydın hiss olunur. Zabitlər bizi həvəslə öyrədir, getdikcə bizdə hərbi biliklərə böyük maraq oyadırlar. Məhz buna görə də gündən-günə təcrübəmiz artır. Gələcək uğurlara gedən yollarımız bugünkü məşğələlərdən başlanır. Hərbi xidmət mənim üçün çox müqəddəsdir. Buna görə də Azərbaycan əsgəri adını daşımaqdan qürur duyuram."

Gənc əsgərlərdən Elşad Hüseynov, Kənan Əlizadə, Nihad Quluyev, Elsevər Abdullazadə, Ağaşərif Əliyev və başqaları da hərbi biliklərə dərindən yiyələnəcəklərindən, yurdumuzun keşiyində həmişə ayıq-sayıq dayanacaqlarından, erməni qəsbkarlarının tapdağı altında olan torpaqlarımızı azad edərkən qəhrəmanlıq və igidlik göstərəcəklərindən ürəkdolusu danışdılar.

Fasilə başa çatdı və məşğələ yenidən başlandı. Budur, gənc əsgərlər yenə də həvəslə hərbi bilikləri öyrənir, döyüş təcrübələrini artırırlar. Sabahkı böyük uğurlarının yollarında ilk addımlarını atırlar. Təbiidir ki, bu kövrək addımlar getdikcə möhkəmlənib bərkiyəcək, bu yollar onları sonda qələbəyə qovuşduracaq. Bu anlarda xoş duyğular keçirə-keçirə deyirəm: "Qələbəyə gedən yolun uğurlu olsun, Azərbaycan əsgəri!"

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

### Hərb tariximiz

# Azərbaycanın və qardaş Türkiyənin istiqlaliyyəti üçün savaşmış azərbaycanlı zabit

*Azərbaycan Ordusunun tarixi Azərbaycan Xalq Cümhuriyyəti tarixinin ayrılmaz tərkib hissəsidir. Cümhuriyyət ordusunun yaradılması, formalaşdırılması, qısa müddət ərzində real hərbi qüvvəyə çevrilməsi Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin və Hərbi Nazirliyin fəaliyyətinin çox mühüm, şərəfli səhifələrindən birini təşkil edir.*



Rəfibəyov Səməd bəy Məşədi bəy oğlu (Türk Silahlı Qüvvələrindəki xidmət dəftərçəsində Əbdülsəməd bəy Sayqın və ya Əbdülsəməd bəy Sayqın Rəfibəyzadə kimi qeyd edilmişdir) 1892-ci ildə Gəncə şəhərinin Balabağban qəsəbəsində anadan olub. 1916-cı ildə Tiflis kadet korpusunu bitirib və 7-ci Qafqaz sərhəd alayında "poruçik" (indiki baş leytenant) hərbi rütbəsində həqiqi hərbi xidmətə başlayıb. 1918-ci ilin yanvarında yeni yaradılan Müsəlman korpusunun 1-ci Bakı piyada alayında piyada bölüyünün komandiri olub. Qafqaz İslam Ordusunun tərkibində nümunəvi xidmətlərinə və döyüşlərdə göstərdiyi igidliyə görə ona 2 iyul 1918-ci ildə "ştabs-kapitan" (indiki kapitan) hərbi rütbəsi verilib. Türk Qoşunları Azərbaycanı tərk etdikdən sonra Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarovun 3 fevral 1919-cu il tarixli 55 №-li əmri ilə 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayında piyada taboru komandiri vəzifəsinə təyin edilib. Nümunəvi xidmətlərinə görə Hərbi nazirin təqdimatı ilə Nazirlər Şurası sədrinin 25 iyun 1919-cu il tarixli 28 №-li əmri ilə ona "kapitan" (indiki mayor) hərbi rütbəsi verilib. 26 avqust 1919-cu il tarixdə Hərbi nazirin 373 №-li əmri ilə yeni yaradılan əlahiddə Lənkəran ehtiyat taboruna komandir təyin edilib. Həmin tabor 1 dekabr 1919-cu il tarixdən Cümhuriyyət ordusunda aparılan təşkilati-ştat dəyişikliyi ilə əlaqədar 7-ci Şirvan piyada alayı kimi təşkil edilib və kapitan Rəfibəyov həmin alayın komandiri vəzifəsini icra edir. 1920-ci ilin əvvəllərində Qarabağda vəziyyət yenidən gərginləşəndə Hərbi nazir 25 yanvar 1920-ci il tarixli 54 №-li əmri ilə vaxtından əvvəl "podpolkovnik" (indiki polkovnik-leytenant) hərbi rütbəsi verilməklə Səməd bəy Rəfibəyovu 1-ci piyada diviziyasının 1-ci Cavanşir piyada alayına komandir təyin edir. Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarov Rəfibəyovun təyin əmrində onun Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək bunları qeyd etmişdir:

"Mənim 26 avqust 1919-cu il tarixli 373 №-li əmrim ilə kapitan indi podpolkovnik Rəfibəyov yeni yaradılan Lənkəran ehtiyat taborunun komandiri təyin edilib. Ölkə və gənc ordumuzun qarşısında məsuliyyətini dərk edən Rəfibəyov bütün enerjisini və biliyini Lənkəran taborunun formalaşmasına yönəldərək qısa müddət ərzində yüksək nəticələr əldə etməklə döyüş qabiliyyətli bir hərbi hissəni formalaşdırır. Təcrübəli və savadlı bir zabit kimi daha sonra mənim 1 dekabr 1919-cu il tarixli 551 №-li əmrim ilə yeni yaradılan 7-ci Şirvan piyada alayının komandiri vəzifəsinin icraçısı təyin edilir. Onun işgüzarlığını və şəxsi heyətə qayğısını nəzərə alaraq, mən xüsusi təqdimatımla Rəfibəyova vaxtından əvvəl "podpolkovnik" hərbi rütbəsi verilməsi üçün Hökumət qarşısında vəsatətlə çıxış etdim və Hökumətin 25 yanvar 1920-ci il tarixli əmri ilə ona "podpolkovnik" hərbi rütbəsi verildi. Əmri elan etməklə səmimi qəlbdən podpolkovnik Rəfibəyova vicdanlı və səmimi xidmətinə görə "Təşəkkür" elan edirəm və əminəm ki, yeni xidmət yerində də ona verilən etimadı doğruldaraq qısa müddət ərzində hərbi hissənin döyüş qabiliyyətini lazımi səviyyəyə qaldıracaqdır."

Diviziya komandirlərinin, eləcə də Hərbi nazirin müavini general Ələğa Şıxlinskinin raportlarında da Səməd bəy Rəfibəyov savadlı, yorulmaz komandir kimi xarakterizə edilib. Alay, briqada və diviziya komandiri vəzifələrinə zabitlər şəxsən Hərbi nazir tərəfindən seçilərək təyin edilirdi. Seçim zamanı onların hərbi biliyi, təcrübəsi, şəxsi keyfiyyətləri, xalqına və dövlətinə sadiqliyi əsas kriteriya kimi götürülürdü. Səməd bəy Rəfibəyovda bu keyfiyyətlər olmasaydı, Hərbi nazir onu Qarabağ kimi mürəkkəb bölgədə alay komandiri vəzifəsinə və bir ildə iki dəfə yeni hərbi rütbəyə təqdim etməzdi. Bu etimadı podpolkovnik Səməd bəy Rəfibəyov öz gərəkli xidməti ilə qazanmışdı.

Podpolkovnik Səməd bəy Rəfibəyov 1920-ci ilin mart və aprel aylarında Xankəndidə və Əskəranda milli hökumətimizə qarşı qiyam qaldırmış erməni daşnakları ilə döyüşlərdə qəhrəmanlıq göstərənlərdən biri olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqda onunla barışmayıb, 1920-ci ilin mayın sonu - iyunun əvvəlində rus bolşevikləri ilə erməni daşnaklarının birləşmiş qüvvələrinə qarşı Gəncə üsyanında qeyri-bərabər döyüşlərdə peşəkar zabit kimi vuruşub. Üsyan yatırıldıqdan sonra komandiri olduğu hərbi hissənin yerdə qalan bir qrup heyəti ilə birlikdə Türkiyəyə keçib və Azərbaycan süvari alayı olaraq Türk Qoşunlarının tərkibində Şərq cəbhəsində vuruşub.

Türk ordusunda həqiqi hərbi xidmətə qəbul edilmə tarixi xidmət dəftərçəsində 1 iyul 1918-ci il (01 temmuz 1336-cı il) göstərilir. Böyük ehtimalla bu tarix Nuru paşanın komandanlığı altındakı Qafqaz İslam Ordusunda həqiqi hərbi xidmətə daxil olma tarixidir.

Əslində, Gəncə və Qarabağdakı Cümhuriyyət ordusunun üsyanı yatırıldıqdan sonra podpolkovnik Səməd bəy Rəfibəyov hərbi hissəsinin sağ qalanları ilə Türkiyəyə keçərək 01 iyul 1920-ci ildən Şərq Cəbhəsində Türk ordusunun tərkibində yaradılan Azərbaycan süvari alayının komandir müavini kimi həqiqi hərbi xidmətə başlayıb. Həmin vəzifədə 1921-ci ilin martına kimi xidmət edib. "Ermənistan hərəkatı" və "İraq cəbhəsi" adlanan döyüş əməliyyatlarında iştirak edib. 1921-ci ilin martından 1922-ci ilin noyabrına kimi Şərq Cəbhəsi qərargahında tərcümə şöbəsinin rəisi olub. 1922-ci ilin noyabrından 1924-cü ilin noyabrına kimi 6-cı süvari diviziyasının 15-ci süvari alayı komandirinin müavini olub. 1924-cü ilin noyabrından 1928-ci ilə kimi isə həmin diviziyanın qərargahında əlaqələndirici zabit vəzifəsində xidmət edib. 1928-1930-cu illərdə hərbi məktəbdə təkmilləşdirmə kurslarında təhsil alıb. Təhsilini bitirdikdən sonra 13-cü süvari alayında süvari bölük komandiri vəzifəsinə təyin edilib. Həmin alayda 1932-ci ilədək xidmət edib, sonra 5-ci süvari alayına keçirilib. 1935-ci ildə 5-ci süvari alayı qərargahında xidmətdə olarkən alay komandiri vəzifəsini icra edib. 1938-ci ildə 41-ci süvari alayı komandirinin müavini vəzifəsinə təyin edilib və 1940-cı ilədək həmin vəzifədə xidmət edib. 1940-cı ilin əvvəllərində 3-cü ordunun kəşfiyyat şöbəsinin rəisi təyin edilib. 15 avqust 1942-ci ildə isə 45-ci süvari alayının komandiri vəzifəsinə təyin edilib. 28 avqust 1948-ci ildə daha yuxarı vəzifəyə 2-ci süvari briqadasının komandiri vəzifəsinə irəli çəkilib.

Bəzi mənbələrdə onun Türk ordusuna xidmətə qəbul edilərkən "polkovnik" hərbi rütbəsində olduğu bildirilsə də, Türk Silahlı Qüvvələrində xidmətdə olarkən 2 avqust 1952-ci ildə tərtib edilmiş xidmət dəftərçəsindən görünür ki, ona yalnız 30 avqust 1942-ci ildə Türk ordusunda "polkovnik" (albay) hərbi rütbəsi verilmişdir. Səməd bəy Rəfibəyov Türkiyə Cümhuriyyətində soyad qanunu çıxanda Əbdülsəməd bəy Sayqın adını götürmüşdür. Onun Türkiyə Silahlı Qüvvələrindəki xidmət dəftərçəsində, eyni zamanda, Əbdülsəməd bəy Sayqın Rəfibəyzadə də qeyd edilmişdir. Əbdülsəməd bəy Sayqın (Səməd bəy Rəfibəyov) 30 avqust 1948-ci ildə süvari briqadasının komandiri olarkən "general-mayor" hərbi rütbəsinə layiq görülmüşdür. 2 avqust 1952-ci ildə general-mayor Əbdülsəməd bəy Sayqın Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunlarının İnspeksiya qrupunun üzvü olur və həmin vəzifədən ehtiyata buraxılır. General-mayor Əbdülsəməd bəy Sayqın (Rəfibəyov Səməd bəy Məşədi bəy oğlu) qardaş Türk ordusunda həqiqi hərbi xidmətdə olarkən İstiqlal savaşında yaxından iştirak edib, "Hərb" və "İstiqlal" medalları ilə təltif olunub. Xidmət dəftərçəsindəki qeydə görə sonuncu qeydiyyat yeri Ankara şəhəri Sakarya məhəlləsi ev 28 t ünvanı olub.

Əbdülsəməd bəy Sayqın hərbi xidmətdə və ehtiyatda olarkən qardaş Türkiyədə Azərbaycan siyasi mühacirləri ilə daim sıx əlaqədə olmuş və Azərbaycanın yenidən müstəqilliyə qovuşması üçün mübarizə aparmışdır. Xalqımızın bu istedadlı oğlu qardaş Türkiyə ordusunda general-mayor hərbi rütbəsinə layiq görülən ilk azərbaycanlı zabitdir. Əbdülsəməd bəy Sayqın 1980-ci il yanvarın 19-da ömrünün 88-ci ilində qardaş Türkiyədə vəfat edir.

Generalın həm Cümhuriyyət ordusunda, həm də Türkiyə ordusundakı xidmətləri, onun əqidə bütövlüyü, dürüstlüyü, zabit əyilməzliyi, Cümhuriyyət ordusuna və qardaş Türk ordusuna sədaqəti, Azərbaycan xalqı qarşısında sədaqətli xidmətləri gələcək nəsillərin də xatirələrində yaşamalı və hər bir müasir Azərbaycan zabitinə sədaqət nümunəsi sayılmalıdır.

**Polkovnik
Atamalı ŞAHBAZOV**

# Qoşunların yeni tədris dövrünə hazırlığının yoxlanılması davam edir



*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qoşunların yeni tədris dövrünə hazırlığının yoxlanılması məqsədilə keçirilən kompleks tədbirlər çərçivəsində hərbi hissələrin zirehli, avtomobil və xüsusi texnikalarının vəziyyəti yoxlanılır və qiymətləndirilir.*



Hərbi texnikanın vəziyyətinin qiymətləndirilməsi onun əsas sistem və aqreqatlarının fəaliyyətinin yoxlanılması ilə həyata keçirilir.

Kompleks tədbirlər davam edir.

Ordu və cəmiyyət

# “İnanıram ki, əsgərlərlə növbəti görüşlərimiz Şuşada olacaq”

*Füzuli Dövlət Dram Teatrının yaradıcı kollektivi müntəzəm olaraq həm əlamətdar, həm də bayram günlərində hərbi hissə və birləşmələrə gedir, hərbçilər qarşısında teatrlaşdırılmış maraqlı konsert proqramları ilə çıxış edirlər. Belə maraqlı tədbirlər zabit və əsgərlərimizin ruh yüksəkliyini daha da artırır, onların vətənpərvərlik hisslərini coşdurur. Bu cür səmərəli görüşlərdən həm teatrın kollektivi, həm də hərbçilər məmnun qalırlar. Hərbi hissələrdə Füzuli Dövlət Dram Teatrının ünvanına tez-tez xoş sözlər eşidirik. Bu günlərdə ezamiyyətdə olarkən teatrın direktoru, Əməkdar mədəniyyət işçisi Vaqif Vəliyevlə görüşüb söhbət etdik, gördükləri işlərdən, hərbi hissə və birləşmələrdə vətənpərvərlik mövzusunda keçirdikləri tədbirlərdən danışdıq. Vaqif müəllim söhbətə cığır salaraq dedi:*




- Qarabağ müharibəsi başlanan ilk günlərdən biz daim hərbçilər qarşısında maraqlı konsert proqramları ilə çıxış edir, onları Vətənin müdafiəsinə ruhlandırırıq. Bu gün də həmin ənənəni uğurla davam etdiririk. Teatrımızın kollektivi tez-tez hərbi hissələrdə olur, zabit və əsgərlər qarşısında müxtəlif səpkili tamaşalarla, həmçinin konsert proqramları ilə çıxış edirlər. 2016-cı ilin uğurlu Aprel döyüşlərində erməni işğalçılarından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində "Xalq ilə ordunun birliyi" adlı hərbi vətənpərvərlik bayramı da kollektivimiz üçün yaddaqalan oldu. Əməkdaşlarımızın çıxışları hərbçilər tərəfindən hərarətlə qarşılandı. Bütün bayramlarda biz Vətən keşikçilərinin yanına gedirik. Çalışırıq ki, mahnılarımızla, tamaşalarımızla hərbçilərimizin döyüş əzmini daha da yüksəldək. "9 Noyabr - Bayraq Günü" münasibətilə teatr binasının qarşısında əsgərlərlə birlikdə bayram konserti təşkil olunmuşdu. Ön cəbhədə xidmət edən əsgərlərin ad günlərində də teatrın yaradıcı kollektivi sürprizləri ilə onları sevindirməyə çalışır. Müəyyən xeyriyyə tədbirlərində də hərbi hissə və birliklərlə fəal əməkdaşlıq edirik. Ötən ayın son günlərində kollektivimiz hərbi hissənin bir qrup şəxsi heyəti ilə Şəki və Gəncə şəhərlərindəki uşaq evlərinə getdi, tamaşa-konsert proqramı ilə onların kövrək qəlblərini oxşadı. Həmçinin hədiyyələrlə də uşaqları sevindirdik. Yaradıcı kollektiv hərbi hissələrdəki çıxışlarına, repertuarlarına xüsusi diqqət yetirir. Daha çox hərbi vətənpərvərlik, marş və mahnılarına üstünlük veririk. Əsgərlərin asudə vaxtlarını daha səmərəli keçirmələri və hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində yorulmadan çalışırıq. Hərbi hissədəki çıxışlarımız, zəhmətimiz hər zaman hərbçilər tərəfindən yüksək qiymətləndirilib. Dəfələrlə əməkdaşlarımız komandanlıq tərəfindən fəxri fərman və diplomlarla mükafatlandırılıb. Göstərilən bu diqqət və qayğı isə bizi daha da həvəsləndirir, yeni görüşlərə sövq edir.

Yeri gəlmişkən, onu da deyim ki, bu günə qədər 100-dən çox dram əsərinə səhnə həyatı vermişik. Teatr bu gün şanlı tarixinə yeni səhifələr yazır. Yaradıcı kollektiv mütəmadi olaraq hərbi hissələrdə, rayonun işğaldan azad olunmuş kənd və qəsəbələrində müxtəlif tamaşa proqramları ilə çıxış edir. Bu il teatrımız üçün əlamətdar olan hadisələri oxucuların diqqətinə çatdırmaq istərdim. Mədəniyyət Nazirliyinin təsdiq etdiyi repertuar planına uyğun olaraq, teatrda M.F.Axundzadənin "Hekayəti Müsyö Jordan və Dərviş Məstəli şah", S.İbrahimlinin "Sadığın toyu", Əli Səmədlinin "Əhmədin vəfalı xoruzu", Y.Əzimzadənin "Nəsrəddin" tamaşaları hazırlanıbdır. Həmçinin Yeni il və Novruz bayramı münasibətilə şou-proqramlar, anım günləri ilə əlaqədar poetik xalq tamaşaları ictimaiyyətə təqdim olunub. "Nəsimi İli" çərçivəsində teatrımız "Nəsimi eşqi" adlı poetik xalq tamaşası ilə çıxış edib. Adını çəkdiyim bu tamaşalar hərbi hissələrdə də nümayiş etdirilib və hərbçilər tərəfindən böyük rəğbətlə qarşılanıb.

Hələ qarşıda bizi hərbi hissələrdə neçə-neçə görüşlər gözləyir. Ordumuzun gücünə, qüdrətinə güvənərək inanıram ki, zabit və əsgərlərlə növbəti görüşlərimiz Şuşada, Xankəndidə və işğaldan azad edəcəyimiz torpaqlarımızda olacaq.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**



Analitik şərh

# Ermənistanda növbəti etirazların baş qaldıracağı istisna olunmur

*Son vaxtlar erməni KİV-də Paşinyan hökumətinin mövqelərinin zəiflədiyini göstərən yazılar dərc olunur. Bu da siyasi elita daxilində rəqabətin güclənməsi ilə müşahidə olunur. 2018-ci illə müqayisədə Baş nazir Nikol Paşinyanın reytinqi kifayət qədər aşağı düşüb. Paşinyanın "Məxməri inqilab" zamanı verdiyi vədləri yerinə yetirə bilməməsi Baş nazirə inamın azalmasına gətirib çıxarıb.*

Ölkədə işsizlik, immiqrasiya kimi problemlərin qalması sosial-iqtisadi sahələrdə mühüm islahatların aparılmadığından xəbər verir.

Ona görə də Ermənistanda növbəti spontan etirazların baş qaldıracağı istisna olunmur. Ermənistan mətbuatının yazdığına görə, N.Paşinyanın inqilab yolu ilə hakimiyyətə gəlməsinin təşkilatçısı olan ABŞ baş nazirin reytinqinin aşağı düşməsindən narahatlıq keçirir. Hətta ABŞ-ın İrəvandakı səfirliyi Paşinyanın reytinqini öyrənmək üçün hesabatlar hazırlayır. Çünki növbəti etiraz dalğası ABŞ üçün arzuolunmaz bir şəxsin Ermənistanda hakimiyyət başına gəlməsi ilə nəticələnə bilər.

Rəsmi Vaşinqton Ermənistanda vəziyyəti nəzarətdə saxlamaq üçün Paşinyana alternativ siyasi varis də hazırlayıb. Bu, Baş nazirin müavini Tiqran Avinyandır. Xüsusilə, erməni mətbuatında T.Avinyanın digər baş nazir müavini Mher Qriqoryandan daha fəal olmasına dair xəbərlərin yayılması N.Paşinyanın narahatçılığına səbəb olmuşdu. Hətta bir müddət aralarındakı münasibətlərin soyuq olduğuna və T.Avinyanın N.Paşinyanın yerində gözü olduğuna dair də yazılar dərc edilmişdi. Qeyd edək ki, T.Avinyan həm də "Soros Fondu"nun Ermənistandakı əsas koordinatorlarından biri sayılır. Nikol Paşinyanın konstitusiya islahatı keçirmək qərarına gəlməsi də Baş nazirin zəifləmiş hakimiyyəti möhkəmlətmək niyyəti ilə izah edilir.

Xatırladaq ki, Ermənistan mediasında hələ bir neçə ay öncə Paşinyanın 2020-ci ildə konstitusiyada dəyişiklik etmək məqsədilə referendum keçirəcəyi barədə məlumat yayılmışdı. Həmin məlumata görə, Baş nazirin məqsədi yeni konstitusiyanın qəbulundan sonra ölkədə hakimiyyət bölgüsünü yenidən formalaşdırmaq və növbədənkənar prezident seçkiləri keçirməyi planlaşdırır. Bununla da N.Paşinyan Armen Sarqsyanı prezident postundan uzaqlaşdıraraq onun yerinə öz adamını gətirmək niyyətindədir. Eləcə də konstitusiyaya ediləcək əlavə və dəyişikliklər Nikol Paşinyana məhkəmə-hüquq sisteminə nəzarəti artırmaq imkanı yarada bilər.

"Hraparak" qəzeti Baş nazirin konstitusiyanı dəyişməklə özünə daha monolit hakimiyyət formalaşdırmağa hazırlaşdığını yazır. Referendum da, əslində, Paşinyanın parlamenti buraxmasına xidmət edir. Qeyd edilir ki, Nikol Paşinyan bu yaxınlarda partiya üzvləri ilə məsafə də saxlayır. "Paşinyanı Yeni il münasibətilə təbrik etmək və onu hökumətə məxsus istirahət evində ziyarət etmək hüququna yalnız "seçilmişlər" - Ararat Mirzoyan, Lilit Makunts, Hakob Simidyan malik olublar.

Nikol Paşinyanın reytinqinin aşağı düşməsi hakimiyyət dəyişikliyini qaçılmaz edir. Ona görə də yaxın vaxtlarda Ermənistan rəhbərliyinə yeni fiqur gələ bilər: Hətta bu yaxınlarda Ermənistan mətbuatında Paşinyanın psixoloji xəstəliyinin olması barədə məlumat yayılmışdı. Belə suallar səslənir ki, hökumət nə üçün bu problemin qarşısını almır. Hətta bir müddət öncə onun barəsində yayılmış videoda da göstərilirdi ki, Vanadzor şəhərinə səfəri zamanı həyat yoldaşı yaxınlaşıb Nikol Paşinyanın cibinə ağ kağıza bükülmüş nə isə qoyur. Həmin bükülünün ya narkotik, ya da psixotrop maddə olduğu iddia edilirdi. Ermənistanın ən populyar qəzetləri onu hakimiyyətdən uzaqlaşdırmaq üçün Robert Köçəryanın oğulları tərəfindən planlar hazırlandığını yazır.

Mətbuat tez-tez "Paşinyanın növbəti yalanı" başlıqlı məqalələr dərc edir. Onun yerinə kimin gəlməsindən danışsaq, mənim fikrimcə, Paşinyanı əvəz edə biləcək ən real namizəd hazırda prezident Armen Sarqsyandır. Paşinyan bu prosesin qarşısını almaq və hakimiyyəti əlində cəmləşdirmək üçün ölkədə prezident üsulidarəsini bərpa etməyə çalışır. Yəni, özü prezident olmaq istəyir. Çünki Paşinyan özü də çox gözəl başa düşür ki, Ermənistan parlamentli respublika üsulidarəsinə hazır deyildi. Ölkədə parlamentar sistem tamamilə çökmüş vəziyyətdədir. Bu baxımdan, konstitusiya referendumu keçirməkdə məqsəd də ölkədə parlamentar sistemdən prezidentli respublika üsul-idarəsinə qayıtmaqdır. Ancaq Paşinyanın buna nail olacağını söyləmək çətindir. Armen Sarqsyan vaxtilə Avropada yaşayıb fəaliyyət göstərdiyi üçün ermənilər onu mədəni-elitar təbəqənin nümayəndəsi kimi hakimiyyətdə saxlamaq istəyir. Hesab edirlər ki, Armen Sarqsyan hakimiyyətdə qalarsa, ermənilərin vəziyyəti hərtərəfli yaxşılaşar. Son zamanlar erməni mediasında çıxan xəbərlərə görə xalqın rəğbətini qazanan prezident A.Sarqsyanın reytinqi durmadan artır. Onu da qeyd edək ki, prezident A.Sarqsyan həm Qərbdə, həm də Rusiyada böyük nüfuza sahibdir. Erməni diasporasının prezident A.Sarqsyana dəstək verdiyi də bildirilir.

Digər tərəfdən, Paşinyan da ifadə vermək üçün istintaqa çağırılması haqda məlumat və şəkillər paylaşmaqla reytinqini artırmağa çalışır.

Xüsusi İstintaq Komitəsinə nə üçün çağırıldığını açıqlamasa da, Ermənistan tarixində ilk Baş nazir kimi müstəntiqin kabinetinə gəldiyini yazıb. Son vaxtlar onun qızının və həyat yoldaşının siyasətə müdaxilə etməsi də xalq arasında narazılıq yaradır. Hesab edirəm ki, Paşinyan konstitusiya islahatı aparmaqla hakimiyyəti əlində saxlaya bilməyəcək. Bir il bundan əvvəl Paşinyanı dəstəkləyən erməni xalqı artıq ona qarşı çıxır. Yerli əhali tez-tez hökumət binasının qarşısında etiraz aksiyaları keçirərək, Paşinyandan verdiyi sözləri əməl etməsini tələb edir. Xüsusilə də hərbçilərin ailələrini təmin edə bilməməsi, uşaqlarını xəstəxanaya aparacaq maddi imkanlarının olmaması Ermənistan ordusundakı dərin böhranın bariz nümunəsidir ki, hərbçilər xalqa müraciət edərək onlardan kömək istəyirlər. Göründüyü kimi, bütün bunlar N.Paşinyanın xalqa vəd etdiyi “çiçəklənən” yeni Ermənistandır.

**Ehtiram AŞIRLI,**
**siyasi analitik**

# Şəhidlərin xatirəsinə həsr olunmuş yarış keçirilib

Xocavənd rayon İdman Kompleksində Müdafiə Nazirliyinin və Xocavənd rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 2017-ci ilin fevral ayında düşmən təxribatının qarşısını alarkən şəhid olmuş hərbi qulluqçuların xatirəsinə həsr olunmuş hərbi hissələr arasında yunan-Roma, sərbəst güləş və cüdo yarışlarının final mərhələsi keçirilib.





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə hərbi qulluqçular, Xocavənd rayon ictimaiyyəti nümayəndələri, müharibə veteranları, şəhid ailələri və rayonun orta məktəblərinin şagirdləri iştirak edib.

Yarış xalqımızın ümummilli lideri Heydər Əliyevin və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması, Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Yanvarın 27-dən başlayan idman yarışında müxtəlif çəki dərəcələrində ümumilikdə 110 hərbi qulluqçu iştirak edib.

Yarışların nəticəsinə uyğun olaraq final mərhələsinin qaliblərinə diplom və kuboklar təqdim olunub.

## Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində müxtəlif səbəblərdən xəsarət alan əsgərlərin sayı durmadan artır. Lakin ağır xəsarət almalarına baxmayaraq, həkimlərin və komandirlərin səhlənkarlığı səbəbindən müalicə olunmamaları da əsgər ailələrinin əlavə dərdinə çevrilib.

Hərbi hissələrdən birinin əsgəri Qor Antapyan müəmmalı şəraitdə ayağından xəsarət alıb. Bu azmış kimi Q.Antapyan həkimlərin səhlənkarlığı səbəbindən müalicə olunmur. Əsgərin valideynlərinin dəfələrlə xahiş etmələrinə baxmayaraq yaralı əsgər hərbi hospitala göndərilmir.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində baş vermiş silahlı insident barədə əlavə məlumatlar bəlli olub.

Hərbi hissələrdən birinin əsgəri, əslən Livandan olan Henri Hayk Simon Zakaryan xidmət yoldaşlarının təhqirlərinə dözməyərək avtomat silahdan onlara atəş açıb.

Məlum olub ki, yaralanan Armen Mesropyan və adı gizlədilən digər əsgər yerli ermənilərdəndir. Hər iki hərbi qulluqçunun öz xidmət yoldaşları Livan əsilli Henri Hayk Simon Zakaryanı mütəmadi olaraq təhqirlərə məruz qoyduqları ortaya çıxıb. Təhqirlərdən bezən Zakaryan silaha əl ataraq hər iki əsgəri güllələyib.

Nəticədə əsgər A.Mesropyan ağır odlu silah yarası alıb. Adı, hələlik, gizli saxlanılan ikinci əsgər isə imkan taparaq kazarmanın pəncərəsindən özünü atıb və ağır bədən xəsarətləri alıb.

Əsgər yoldaşlarını güllələdikdən sonra Zakaryan avtomat silahı ağzına dayayaraq intihar edib. Yaralı hərbçilər hospitala yerləşdirilib. Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır. Qondarma rejimin "hərbi rəhbərliyi" hazırda insident baş verən əraziyə gəlib.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

## Şəkil sözü - şəklin sözü



Şəkil həm bir anın yaşadılan dərkidi, həm də bir anın dərkinin yaşadılan tarixi...

Məzmunlu şəkil həm zaman deməkdi, həm də məkan - zamanı və məkanı eyni görüntüdə birləşdirən həmin bir anın əbədiliyinin başlanğıcı deməkdi. Belə şəkillər mehr-ülfətlə, səmimiliklə, könül xoşluğuyla danışan, mətləb bildirən şəkillərdi. Uca ruhların qayibanə səsini eşidə bilənlər belə şəkillərin pıçıltısını da duyur. Çəkildiyi anın tarixi olan məzmunlu şəkil mətləb açaaça, danışa-danışa tarixi yaşadır - tarixləşir.

Bir anın tarixi bəzən böyük mətləbləri, böyük mətləblər biçimində milli-xəlqi ruhun zərrəsini ifadə edir. Belə şəkillərdə hiss edilən, duyulan, güman edilən qüdrət var. Bu qüdrəti duyanlar onun səsini də eşidir; görən, eşidən düşünür, düşüncələri zaman anlamında sabahlara ad olan murazları gerçəkləşdirəcək qətiyyətin eyninə dönüb sabahların cəfakeşi olur. Bu düşündürən mətləb də yaşada-yaşada yaşanılır, yaşanıla-yaşanıla yaşadır. O anlarda sənə elə gəlir ki, bir əlin bu məzmunlu şəkli tarixləşdirən andadı, o biri əlin sabahlarda...

Müharibə torpaqlarımız işğaldan azad edildə başa çatacaq, Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmriylə 2016-cı ilin Aprel zəfərini Böyük Qələbəylə tamamlayacaq, səngərləri sərhədlərə köçürəcək. Bu dönməz əminlik Azərbaycanda ordu quruculuğunun uğurla davam etdirilməsinin əminliyidi, son illərdə həyata keçirilən irimiqyaslı islahatların, genişmiqyaslı təlimlərin, "TurAz Qartalı" formatında beynəlxalq təlimlərin Azərbaycan Ordusunun gücünü daha da artırdığının əminliyidir. Bu əminlik dünyanın ən güclü orduları sırasında olan Azərbaycan Ordusunun şəxsi heyətinin yüksək döyüş əzminin, yüksək qələbə ruhunun mahiyyətidi, bu mahiyyətin tarixləşəcək ifadəsidi...

Düşmənlə təmas xəttində - səngərin qənşərində bir anın tarixini yaşadan bu şəklə üreyinin gözüylə baxanlar Azərbaycan əsgərini döyüşə aparacaq yolun başlanğıcını görür, bu şəkli ürəyiylə dinləyənlər işğalda qalmış Cıdır düzününün, İsa bulağının, Qırxqızın, Ərgünəşin, Ərimgəldinin, Kirsin, ... harayını, qəhrəmanlarımızın döyüş yolunu davam etdirənlərimizin döyüşqabağı andını eşidir.

"Bu günün əsgəri zaman anlamında dünənin əsgərinin ruh qardaşıdı. Dünənin əsgəri Lələtəpənin, Bayraqtəpənin fatehi oldu, bu günün əsgəri Şuşanın fatehi olacaq. Ön xətdə, səngərdə əsgərlərlə söhbətlər sizi məhz bu gözəl, bu dönməz inama kökləyir. Döyüş növbətçiliyi aparanların, düşmənin hər tərpənişini nəzarətdə saxlayanların baxışları daha qətiyyətlidi. Bu qətiyyət döyüş əzmidi, qələbə ruhudu", - şəkil belə deyir. Şəklin sözünü eşidənlər yerə-göyə inandığı qədərincə inanır ki, bu gün döyüş növbətçiliyi aparan əsgərlər Ali Baş Komandanın döyüş əmriylə ilk gülləni indi nəzarətdə saxladığı əraziyə ata-ata qələbə yoluna - Böyük Qələbənin başlanğıcına çıxacaq, son gülləni dövlət sərhədlərimizin o üzünə atacaq...

"Səngər Böyük Qələbənin yolları üstə müvəqqəti dayanacaqdı" mətləbi kimi baxılan bu şəkil Azərbaycan əsgərinin döyüşəqədərki hərbi xidmət amalını ifadə edir.

Bu məzmunlu, mahiyyətli şəklə baxanlar həm də Azərbaycan əsgərinin Hərbi anda, dövlətə, dövlətçiliyə - Vətənə sədaqətini görür, döyüş və mənəvi-psixoloji hazırlığının səviyyəsini görür, bu hazırlığın nəticəsi kimi döyüş əzmini, qələbə ruhunu görür. Görür və bu yaşarı ruhun min illərin o üzündə heysiyyət uverturasına dönən səsini eşidir: Min illərlə bu torpağa düz ürəklə, təmiz, dürüst niyyətlə gələnlər duz-çörəklə qarşılanıb, bəd niyyətlə gələnlər kəsərli qılıncla. Sərhədlərimizin bu üzünə dikilən gözlər ovulub, sərhədlərin bu üzünə uzanan qara əllər biləyindən kəsilib; torpağı vətənləşdirənlər qılınc çalıb, ürəyi xılt bağlayanların ömrünü tükəndirib, zamanında Dədə Qorqudun özünün, eşidib: Şüurunuz yerisin, axar bulaqlarınız qurumasın, çiçəkləriniz vaxtsız saralmasın, baxtınız-yığvalınız yeyin olsun!

... Hər məzmunlu şəkil duyanlara, milli-xəlqi ruhun səyyarələrinə bir mətləb yaşadır. Bu şəkil də tarixdi, Azərbaycan əsgərinin qazanacağı Böyük Qələbəyə inamın, torpaqlarımızın işğaldan xilt azad ediləcəyinə əminliyin ifadəsidi.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

### Burkina-Fasoda terrorçular 39 nəfəri öldürüblər



Burkina-Fasoda terrorçuların hücumu nəticəsində 39 nəfər öldürülüb.

Hadisə ölkənin şimalında yerləşən Silqaci kəndində baş verib.

Hücuma görə məsuliyyəti hələlik heç bir qruplaşma öz üzərinə götürməyib.

Xatırladaq ki, 2014-cü ildən Fransanın iştirakı ilə Mavritaniya, Mali, Niger, Çad və Burkina-Fasoda "Boko Haram" terror təşkilatına qarşı "Barxan" adlı hərbi əməliyyatlar keçirilir. İndiyədək əməliyyatlarda yüzlərlə terrorçu, habelə çoxlu sayda sığınacaq məhv edilib.

### Türkiyədə Fransa vətəndaşı olan dörd terrorçu deportasiya edilib



Türkiyədə Fransa vətəndaşı olan dörd terrorçu deportasiya edilib.

Bu barədə ölkənin Daxili İşlər Nazirliyindən məlumat verilib.

Açıqlamada əcnəbi terrorçuların ölkələrinə geri qaytarılması işinin davam etdirildiyi bildirilib.

### Xorvatiyada hərbi helikopter qəzaya uğrayıb



Xorvatiyada Hərbi Hava Qüvvələrinə məxsus "Kiowa Warrior" tipli helikopter qəzaya uğrayıb.

Bu barədə ölkənin Müdafiə Nazirliyindən məlumat verilib.

Hadisə Adriatik dənizindəki Zlarin və Zablaçe adalarının yaxınlığında baş verib. Qəza nəticəsində helikopterdəki iki nəfərdən biri həlak olub. Digər şəxsin axtarışlarına başlanılıb.

### ABŞ İraqın "F-16" qırıcıları üçün mərmi tədarükünü dayandırır



ABŞ İraqın "F-16" qırıcılarından ibarət eskadrilyasına ehtiyat hissələri və mərmi tədarükünü dayandırır.

Bunu ABŞ Hərbi Hava Qüvvələrinin mətbuat katibi Brayn Berkens bəyan edib.

Mətbuat katibi bildirib ki, İraqdakı vəziyyət sabitləşəndən sonra həmin silahların tədarükü bərpa olunacaq.

### Əlaəddin Borucerdi: ABŞ ilə heç bir danışıq aparılmayacaq



ABŞ iqtisadi sanksiyaları aradan qaldırsa belə, İran bu dövlət ilə bir masa arxasında oturub danışıqlar aparmayacaq.

Bu sözləri İran İslam Şurası Məclisinin (parlament) Milli təhlükəsizlik məsələləri komitəsinin sədri Əlaəddin Borucerdi deyib.

O bildirib ki, generalın qətlindən sonra ABŞ ilə danışıqlar aparmağın heç bir faydası yoxdur. Əgər bu dövlət beynəlxalq qanunlara və imzalanan müqavilələrə əməl etmirsə, hansı danışıqlardan söhbət gedə bilər.

Xatırladaq ki, parlament üzvü olan Ə.Borucerdinin mövqeyinin Xarici İşlər naziri Məhəmməd Cavad Zərif və Prezident Həsən Ruhaninin mövqeyindən fərqlənməsi İran mətbuatında müzakirələrə yol açıb.

Qeyd edək ki, İranın Xarici İşlər naziri və Prezidenti ABŞ tərəfindən sanksiyaların aradan qaldırılmasından sonra danışıqların mümkünlüyünü bildiriblər.

**AZƏRTAC-ın materialları əsasında**

# Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə 2020-2021-ci tədris ili üçün kursant qəbulu qaydaları

**I. Ümumi müddəalar:**

Tədris dili: Azərbaycan dili

Təhsil forması: əyani

Təhsil müddəti: 4 il

Yaş həddi: Cari ildə ümumtəhsil müəssisələrinin tam orta təhsil səviyyəsini bitirən, 15 sentyabr 2020-ci ilə qədər 17 yaşı tamam olan və 19 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları, habelə 18 yaşından 23 yaşınadək kişi cinsli hərbi qulluqçu və hərbi vəzifəlilər qəbul edilirlər.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olan kursantlar təhsil müddətində bütün təminat növləri ilə təmin olunur və ayda 162 AZN məbləğində müavinət alırlar. Təhsili və intizamı ilə fərqlənən əlaçı kursantların aylıq müavinətlərinə müvafiq qaydalara uyğun əlavələr edilir.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunlarına hərbi ixtisasla yanaşı, müvafiq mülki ixtisas üzrə bakalavr dərəcəsi də verilir.

**II. Sənədlərin qəbulu:**

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmaq istəyən namizədlər 1 aprel 2020-ci il tarixdən 30 aprel 2020-ci il tarixədək ərizə ilə məktəb rəisinə müraciət etməlidirlər.

**Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:**

- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün orta məktəbdən verilmiş arayış);
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);
- oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 2 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara dair müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olubolmaması haqqında arayışlar.

Məktəbə "Təyyarəçilik" ixtisası üzrə daxil olmaq istəyənlər yuxarıda göstərilmiş sənədlərdən əlavə olaraq nəcisdə helmintlərin yumurtalarının və lyambliyaların sistlərinin müayinə-




sinə dair tibbi sənəd də təqdim etməlidirlər.

Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya şəxsən təqdim edilir.

**III. Ali Hərbi Məktəbə qəbul aşağıdakı qaydada həyata keçirilir:**

Namizədlər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində yaradılmış hərbi həkim komissiyasında müayinədən keçməlidirlər. Hərbi həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu zamanı qəbul komissiyası tərəfindən müraciət etmiş şəxsə bildirilir.

Naxçıvan Muxtar Respublikasında yaşayanlar hərbi həkim komissiyasında müayinədən Heydər Əliyev adına Hərbi Liseydə (Naxçıvan şəhəri) keçməlidirlər.

Müraciət edən şəxslərin məhkumluğu barədə arayışın alınması Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi rəisinin sorğusuna əsasən Müdafiə Nazirliyinin müvafiq idarəsi tərəfindən həyata keçirilir.

Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul üçün keçiriləcək test imtahanına hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır.

Namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanı verirlər. Qəbul imtahanı test üsulu ilə birinci mərhələdə buraxılış imtahanı (Azərbaycan dili, riyaziyyat, xarici dil) fənləri üzrə, ikinci mərhələdə isə I ixtisas qrupunun (riyaziyyat, fizika, kimya) fənləri üzrə Azərbaycan dilində keçirilir.

Namizədlər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarının nəticələri əsasında qəbul edilirlər.

**Qeyd:** Təhsil haqqında sənəd təqdim etməyən namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarına buraxılmırlar.

Sənədlər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində yaradılmış komissiya tərəfindən qəbul olunur (ünvan: Bakı şəhəri, Admiral Naximov küçəsi, 18. Əlaqə telefonu: 479-78-40).

Naxçıvan Muxtar Respublikasında yaşayanlar sənədlərini Heydər Əliyev adına Hərbi Liseya (Naxçıvan şəhəri) təqdim edirlər (əlaqə telefonu: 544-00-15, 544-00-16).

Qəbul imtahanının tarixi Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunduqdan sonra əlavə olaraq bildiriləcək.

*Hərbi texnikalar, silahlar*

# MQ-120-RT-61 minaatanı




MQ-120-RT-61 minaatanı Fransanın "Brandt" şirkəti tərəfindən istehsal olunub və fransız ordusunun silahlanmasında duran MQ-120 AM-50 minaatanını əvəz etmək üçün hazırlanıb. Müxtəlif dünya ölkələrinə ixrac edilib. Lisenziya ilə AFR, İtaliya, Niderland, Braziliya, Türkiyə, ABŞ və bir çox ordularının silahlanması üçün də istehsal olunub.

MQ-120-RT-61 minaatanının çəkisi 582 kiloqram, lüləsinin uzunluğu 2800 millimetrdir. Heyəti dörd nəfər atıcı və iki nəfər mexanikdən ibarətdir. Minaatan yivli lülə ilə təchiz olunub, 120 mm-lik standart NATO minaatan mi-



nalarından istifadə edilir. Onun lafeti (altlığı) təkərlidir. Silahın atəş tezliyi dəqiqədə 6-10 atışdır. Nişangah uzaqlığı 8000 metr, reaktiv mərmi ilə isə 13000 metr təşkil edir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Futzal üzrə Azərbaycan millisi Rusiya yığmasına qalib gəlib



Futzal üzrə Azərbaycan milli komandası dünya çempionatının elitraund mərhələsində ilk qələbəsini qazanıb.

Yanvarın 30-da Xorvatiyada Rusiya yığması ilə qarşılaşan komandamız qələbə qazanıb - 4:3.

Millimizin heyətində Everton Kardosonun dubl etdiyi görüşdə digər qolları Rafael Vilela və İsa Atayev vurublar.

Yığmamız ilk oyununda Xorvatiya seçməsinə məğlub olub - 0:2.

Qeyd edək ki, millimiz qrupda sonuncu oyununu fevralın 1-də Bakı vaxtı ilə saat 20:00-da Slovakiya yığmasına qarşı keçirəcək.

## Parisdə keçiriləcək "Böyük dəbilqə" turnirində Azərbaycanı 18 cüdoçu təmsil edəcək



Fevralın 8-9-da Parisdə cüdo üzrə "Böyük dəbilqə" turniri keçiriləcək.

Yarışda Azərbaycanı 13 kişi, 5 qadın cüdoçu təmsil edəcək.

Bu ilin ən nüfuzlu yarışlarından biri olan "Böyük dəbilqə"də 122 ölkədən 800-ə yaxın idmançı iştirakını təsdiqləyib.

Turnir "Tokio 2020" Yay Olimpiya Oyunlarına reytinq xalları qazandırır.

## Qədir Hüseynov Fuceyrada blits turnirində ikinci yeri tutub



Yanvarın 27-də Birləşmiş Ərəb Əmirliklərinin Fuceyra şəhərində şahmatın blits növü üzrə keçirilən turnirdə Azərbaycan şahmatçısı uğurla çıxış edib.

Təmsilçimiz Qədir Hüseynov 9 turdan 6,5 xal toplayaraq ikinci yeri tutub.

Turnirin qalibi 7 xalla polşalı şahmatçı Katsper Pyerun olub. Üçüncü yerdə isə 6 xalla Rusiya təmsilçisi Danila Pavlov qərarlaşıb.

## Cüdoçularımız açıq Avropa kubokunda qüvvələrini sınayacaqlar



Fevralın 1-2-də Bolqarıstanın paytaxtı Sofiyada kişilər arasında cüdo üzrə açıq Avropa kuboku turniri keçiriləcək.

Turnirdə iştirak edəcək Azərbaycan komandasının heyətində 13 idmançı yer alıb. Yarışlarda ölkəmizi 60 kiloqram çəki dərəcəsində Oruc Vəlizadə, Rövşən Əliyev, Davud Məmmədsoy və Turan Bayramov təmsil edəcəklər. Nurlan Osmanov, Vaqif Tarverdiyev 66, Kənan Quluzadə, Paşa Əliyev, Mətin Rzazadə 73 kiloqram çəki dərəcələrində tatamiyə çıxacaqlar. Ağır çəkili cüdoçularımız - Araş Ağayi, Zaur Dünyamalıyev 90, Aslan Mirzəyev 100, İmran Yusifov 100 kiloqramdan yuxarı çəki dərəcələrində qüvvələrini sınayacaqlar.

İndiyədək 33 ölkədən 200-dən çox idmançı turnirdə iştirakını təsdiqləyib.

Cüdoçularımız bu ilin ilk nüfuzlu turnirlərindən biri olan Təl-Əviv Qran-prisini medalsız başa vurublar.

**AZƏRTAC-ın materialları əsasında**

Miçman Rəfili Şahin Akif oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 31
Nüsxə 3900